# 291 nömrəli "Ekologiya" liseyi

Bakının Nərimanov rayonunda yerləşən 291 nömrəli "Ekologiya" liseyi 1994-cü ildə fəaliyyətə başlayıb. Liseyin yerləşdiyi hazırkı bina 1926-cı ildə tikilmiş, II Dünya müharibəsi dövründə hərbi hospital kimi, müharibədən sonrakı dövrdən 1994-cü ilə qədər isə Təhsil İstehsalat Kombinatı kimi istifadə olunmuşdur. Bina 2004-cü ildə əsaslı təmir edilmiş, 2008-ci ildə isə əlavə olaraq II korpus tikilmişdir. Liseyin direktoru Sevinc Orucovadır.











## Maddi-texniki baza

Tədris ocağı üçmərtəbəli əsas və ikimərtəbəli əlavə korpusdan ibarətdir. Liseydə geniş və işıqlı sinif otaqları, fənn kabinetləri, informatika otaqları, həmçinin direktor kabineti, müəllimlər otağı, UBR otağı, tibb otağı, psixoloq kabineti, akt və idman zalları mövcuddur. Kitabxana fondunda kitabların sayı  15115 nüsxəyə bərabərdir. Onlardan 12346 nüsxə dərsliklərdir. Şagirdlərin rahat şəkildə təhsil almaları üçün təhsil müəssisəsi müasir avadanlıqlarla təchiz edilib. Belə ki, liseydə "Elektron məktəb" sisteminin tam tətbiqi üçün işlək vəziyyətdə 49 kompüter, 28 notebook, 3 planşet və 28 proyektor vardır.

## Tədrisin təşkili

Azərbaycan və rus dillərində tədris aparılan "Ekologiya" liseyinin strukturu və fəaliyyətində təhsilin 3 pillədən ibarət mərhələləri ibtidai (I-IV), ümumi orta (V-IX), tam orta (X-XI) tətbiq olunur. Lisey 5 günlük iş rejimində və I növbədə fəaliyyət göstərir. Liseydə 25 sinif vardır ki, onlardan 8-i rus bölməsi, 17-si isə Azərbaycan bölməsidir. Tədris ocağına qəbul müsabiqə yolu ilə həyata keçirilir. IX sinfə qədər liseydə təhsil alan hər bir şagirdə Avropa dillərinin (xüsusilə ingilis, fransız, alman dilləri və s.) öyrədilməsi, kompüter üzrə biliklərin verilməsi, onların fiziki və psixoloji inkişafı əsas istiqamətlər kimi götürülür. Tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə (texniki, təbiət və digər) təşkil olunur. Liseydə təhsilin əsas məqsədi istedadlı uşaqları aşkara çıxarmaq, onları beynəlxalq və digər müsabiqələrə hazırlamaq, şagirdlərin inkişafını təmin etmək və eyni zamanda həmin gənclərə müxtəlif xarici ölkələrdə təhsil almalarına zəmin yaratmaqdır. Tədris ocağında ildə iki dəfə-dekabr və may aylarında həm ümumi inkişaf, həm də profil fənlərindən summativ qiymətləndirmə keçirilir. Summativ qiymətləndirmə nəticələrinə uyğun olaraq şagirdlər təhsilini davam etdirir və yaxud liseydən digər ümumtəhsil məktəbinə köçürülmə barədə Təhsil Nazirliyinə müraciət edilir. Bundan başqa, VII, VIII və IX siniflərdə mütəmadi olaraq ana dili və riyaziyyat fənlərindən əlavə hazırlıqlar və monitorinqlər təşkil olunur. Liseyin Fəaliyyət planı üzrə hər ay bir fənnin aylığına həsr olunur. Hər ay liseydə valideynlər üçün "Açıq qapı" günləri təşkil olunur ki, bu günlər ərzində valideynlər arzu etdikləri dərslərdə iştirak etmək imkanı əldə edirlər. Liseyin psixoloqu tərəfindən həm şagird, həm valideyn, həm də müəllimlər üçün seminarlar təşkil olunur, psixoloji sorğu və monitorinqlər aparılır. Rəhbərlik tərəfindən mütəmadi olaraq dərsdinləmələr həyata keçirilir və ehtiyac duyulduqda dərslərə metodiki mərkəzdən fənn metodistlərinin dəvəti təşkil olunur.

## Nailiyyətlər

Lisey 2008 və 2014-cü illərdə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. "Ekologiya" liseyi ali məktəblərə qəbulun nəticələrinə görə daim ilklər sırasındadır. 2011-2012-ci tədris ilində liseyin  1, 2012-2013-cü tədris ilində isə 5 qızıl medala layiq görülmüş məzunları olmuşdur. Onlar TQDK tərəfindən keçirilən qəbul imtahanlarında etimadı doğruldaraq yüksək ballar toplayıb. 2012-2013-cü tədris ilində liseyi bitirən 54 məzundan 14-ü 500-dən, 7-si 600-dən yuxarı bal toplamışdır. Qəbul üzrə orta bal 406-ya  bərabər olmuşdur. 2013-2014-cü tədris ilində isə liseyi bitirmiş 34 məzunun 7-si 500-dən, 2-si isə 600-dən yuxarı bal toplamış və orta bal 447-yə bərabər olmuşdur. 2014-2015-ci tədris ilində liseyin məzunlarından 21 nəfəri 500 baldan yuxarı nəticə göstərmişdir. Onlardan 10 nəfəri 600 baldan yuxarı nəticə göstərərək respublikamızın və eləcə də xarici dövlətlərin ali məktəblərinə qəbul olmuşlar. 4 nəfər məzun isə 650-dən yuxarı nəticə göstərmiş, beləliklə liseyin qəbul üzrə orta balı 467-yə qalxmışdır. 2014-2015-ci tədris ilinin IX siniflərinin buraxılış nəticələrinə görə 291 nömrəli "Ekologiya" liseyi təhsil naziri Mikayıl Cabbarov tərəfindən təltif edilmiş, qəbulun nəticələrinə görə Nərimanov rayonu üzrə birinci olmuşdur.



Lisey Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən 12 inzibati rayon üzrə keçirilən "Açıq qapı" layihəsində Nərimanov rayon məktəbləri üçün ev sahibliyi etmişdir. Təhsil Nazirliyi tərəfindən 2014-cü ildən keçirilən Respublika fənn olimpiadalarında "Ekologiya" liseyinin şagirdləri biologiya üzrə I, II, fizika üzrə II, kimya üzrə isə III yerə layiq görülmüşlər. 2015-ci ildə keçirilən eyniadlı yarışmada şagirdlərdən Ayxan Əhmədzadə fizika üzrə III, Turan Bayramlı kimya üzrə I, Cavid Nağızadə riyaziyyat üzrə II, Fərrux Əhmədli fizika üzrə II yerləri tutmuşlar. Hər il Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarında iştirak edən liseyin şagirdləri Kamran Əhmədli tarix fənni üzrə, Fidan Məmmədova biologiya üzrə, Sevinc Əliverdiyeva riyaziyyat üzrə, Cavanşir Əmənov coğrafiya fənni üzrə, Emin İsmayılzadə fizika fənni üzrə II mərhələyə keçmişlər.

2015-2016-cı tədris ilində keçirilən "Sabahın alimləri" V Respublika Müsabiqəsində 9-cu sinif şagirdləri Fidan Məmmədova və Heyran Əsgərova tibb və sağlamlıq nominasiyası üzrə II yerə, Elşən Nağızadə kompüter elmləri nominasiyası üzrə "İntel" Beynəlxalq sertifikatına layiq görülmüşdür. 2015-2016-cı tədris ilində "Gənc fiziklərin yaradıcılıq müsabiqəsi"ndə liseyin 8-ci sinif şagirdi Turan Bayramlı, 9-cu sinif şagirdi Emin İsmayılzadə və 10-cu sinif şagirdi Engil Hümbətov I yerə layiq görülüb, diplomla təltif olunublar. 2015-2016-cı tədris ilində Bakı şəhəri üzrə ümumtəhsil məktəblərinin 6-7-ci sinif şagirdləri arasında keçirilmiş "Təhsil ağılın simasıdır" adlı riyaziyyat fənn olimpiadasında liseyin 6-cı sinif şagirdləri Nural Məmmədov və Ümid Fətullayev II yerə layiq görülmüşdür. Şagirdlər hər il liseyin əməkdaş olduğu Rusiya Əməkdaşlıq Cəmiyyətinin, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin və Rusiyanın ölkəmizdəki səfirliyinin keçirdiyi tədbirlərdə fəal iştirak edirlər. 2014-2015-ci tədris ilində 7-ci sinif şagirdi Marina Tişakova "Puşkiniana" layihəsinin Respublika mərhələsində I yerin qalibi olmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil sektorunda İctimaiyyətlə əlaqələrin inkişafı üzrə koordinatoru Elçin Sərdarovun, "Yaşıl qələm" təhsil şəbəkəsinin və 291 nömrəli "Ekologiya" liseyinin birgə hazırladığı "Vətənimi və təbiəti sevirəm" adlı layihəsində şagirdlər I, II, III yerləri tutmuşlar. Bundan başqa, BŞTİ-nin keçirdiyi "Milli-mənəvi irsimiz-bizim tariximizdir" adlı diyarşünaslıq olimpiadasında liseyin komandası II yerə layiq görülmüşdür. Hər il məktəblilər arasında keçirilən "Şahin" hərbi idman yarışında 291 nömrəli "Ekologiya" liseyinin şagirdləri 2014-cü ildə respublika üzrə I, 2015-ci ildə Nərimanov rayonu üzrə I yerə çıxmışlar.

Liseyin şagirdləri respublikamızda keçirilən idman yarışlarında da uğurla iştirak edirlər. Belə ki, Azərbaycan Karate Federasiyasında 10-11 yaşlılar arasında XVI Açıq Azərbaycan çempionatında V sinif şagirdi Kənan Bünyatov 30 kq çəki dərəcəsində yarışaraq I yerin qalibi olmuş və I dərəcəli diplom və medalla təltif olunmuşdur.

Təhsil ocağının uğurlarının təminatçısı yüksək səviyyəli peşəkarlıqları ilə seçilən müəllimlərdir. Daim yenilik axtaran müəllimlər müasir təlim metodlarından və İKT-dən bacarıqla istifadə edirlər. Hazırda liseydə 3 nəfər "Əməkdar müəllim" fəxri adına, 1 nəfər "Tərəqqi" medalı, 3 nəfər "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülən, 4 nəfər isə fəlsəfə doktoru müəllim çalışır.

## Kiçik Akademiya

291 nömrəli "Ekologiya" liseyində 2004-cü ildən "İdrak" elmi-yaradıcılıq cəmiyyəti fəaliyyət göstərir.  Cəmiyyətin adı 2008-ci ildə dəyişib və hazırda Kiçik Akademiya (KA) adı altında öz fəaliyyətini davam etdirir. Kiçik Akademiya şurasına daxildir: KA-nın prezidenti, müdiriyyət, müəllimlər və liseyin şagirdləri. KA-nın prezidenti liseyin 9"c" sinif şagirdi Elşən Nağızadə, elmi işlər üzrə rəhbəri biologiya müəllimi İradə Zöhrabovadır. KA iki elmi iş təqdim edilməklə ayda bir dəfə seminar  keçirir. Seminarlarda həm müəllimlər, həm də şagirdlər çıxış edə bilərlər. Mövzuların seçimi sərbəstdir. KA-nın konfransı aprel ayında keçirilir və fərqlənən şagirdlərin rəğbətləndirilməsi ilə öz işini yekunlaşdırır. KA-nın təşkilində əsas məqsəd yerli və respublika səviyyəsində istedadlı uşaq və gənclərlə aparılan işlərin tənzimlənməsinə, bu sahədə səmərəli fəaliyyət mexanizmi yaradılmasına köməklik göstərməkdən, şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması ilə bağlı tədbirlərin sistemli həyata keçirilməsini təmin etməkdən ibarətdir. KA-nın əsas vəzifələri elmi-tədqiqat fəaliyyətinə meyilli olan istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, mövcud yaradıcı potensialları nəzərə almaqla onların gələcək peşə istiqamətlərini müəyyənləşdirmək, şagirdlərdə elmi yaradıcılığa maraq yaratmaq, onların tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək, şagirdlərdə elmi dünyagörüş formalaşdırılması istiqamətində sistemli iş aparmaqdır. Şagirdlərin elmi cəmiyyətlərdə, intellektual klub və dərnəklərdə təşkilatlanmasını təmin etmək, tədqiqatçılıq bacarığı ilə fərqlənən məktəblilərdə elmi məruzə ilə çıxış etmək, referatlar hazırlamaq, birgə elmi layihələrdə iştirak etmək vərdişləri formalaşdırılmasına əlverişli şərait yaratmaqdır.

## Şagird Parlamenti

Azərbaycan Respublikasının Konstitusiyasını, Uşaq Hüquqları Bəyannaməsini və liseyin nizamnaməsini əsas tutaraq "Ekologiya" liseyində şagird parlamenti fəaliyyətə başlamışdır. Şagird parlamentinin rəhbəri səsvermə yolu ilə seçilir. Qurumun rəhbəri, rəhbərin müavini və spikeri olur. Şagird parlamenti şagird kollektivinin təşəbbüskarlığı ilə demokratik idarəetməni həyata keçirən özünüidarəetmə orqanıdır. Bu orqan liseyin rəhbərliyi və pedaqoji kollektiv ilə sıx əlaqədə fəaliyyət göstərir. Şagirdlərin təlim-tərbiyə prosesində özünüidarəetməsi ən vacib və zəruri məsələlərdən biridir.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*